

# Sabitlik, quruculuq və islahatlar partiyası

**Azərbaycan Respublikasının yeni tarixi dövründə – müstəqillik epoxasında cərəyan edən ictimai-siyasi proseslərin önündə gedən, müasir və mütərəqqi ideyaların daşıyıcısı olan, ən önəmlisi, ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının siyasi arenaya daxil olmasından 30 il ötür. Azərbaycan dövlətçiliyinin üzləşdiyi mürəkkəb və böhranlı günlərdə belə bir aparıcı siyasi qüvvənin yaranması, birmənalı olaraq, tarixi zərurətdən irəli gəlirdi, eyni zamanda, ölkədə cərəyan edən hadisələrin məntiqi nəticəsi idi.**

Ümummilli lider Heydər Əliyev bu gerçəyi belə ifadə etmişdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır".

Xatırlatmaq lazımdır ki, 30 il əvvəl Azərbaycanda hökm sürən xaos, iqtisadi böhran, hərc-mərclik, siyasi səriştəsizlik, torpaqlarımızın ardıcıl şəkildə işğal edilməsi faktiki olaraq dövlət müstəqilliyinin itirilməsi təhlükəsini yaratmışdı. Olduqca mürəkkəb bir şəraitdə 1992-ci ilin oktyabr ayında bir qrup Azərbaycan ziyalısı ulu öndər Heydər Əliyevə müraciət edərək, Azərbaycan xalqının mütləq əksəriyyətinin iradəsini əks etdirə bilən yeni bir siyasi təşkilatın yaradılmasını təklif etdi. Ölkə başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayında "91-lər" adlanan həmin qrupun fəaliyyətini yüksək qiymətləndirərək qeyd etdi ki, onları Azərbaycan xalqı unutmamalıdır: "Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular."

Ümummilli lider Heydər Əliyev 1992-ci il 24 oktyabr tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılması və ona rəhbərlik etməyə razılığını bildirdi və 1992-ci il noyabrın 21-də ulu öndərin sədrliyi ilə Naxçıvanda partiyanın təsis konfransı keçirildi. Həmin dövrdə hakimiyyətdə olan qüvvələrin təzyiq və təhdidlərinə rəğmən və Bakıda konfransın keçirilməsinə imkan verilməməsinə baxmayaraq, 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gələrək, təşkilatın yaradılmasına nail oldu.

Ölkə başçısı İlham Əliyev bu tarixi hadisəni qiymətləndirərək qeyd etmişdir ki, Bakıda təsis konfransının qarşısını alanlar Heydər Əliyev fenomenindən qorxurdurlar. Onlar öz cılız mahiyyətlərini dərk edərək bilirdilər ki, bu tədbir Bakıda keçirilsə onların hakimiyyətinə son qoyulacaq.

Bütün əngəlləri dəf edərək, 1992-ci ilin 18 dekabr tarixində müvafiq hüquqi prosedurlardan keçən yeni siyasi təşkilat Ədliyyə Nazirliyində rəsmi dövlət qeydiyyatından keçdi. Siyasi arenaya daxil olan partiyanın yaradılmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olması cəmiyyətə anlatdı ki, bu siyasət dahisinin fundamental siyasi təcrübəsi, dərin zəkası, Azərbaycan xalqı qarşısında xidmətləri, həyatının hər dövründə nümayiş etdirdiyi vətənpərvərliyi mütərəqqi insanları məhz onun ətrafında birləşdirə bilər.

Görkəmli siyasi xadim, zəngin dövlətçilik təcrübəsi olan ulu öndər Heydər Əliyevin yeni yaradılan partiyaya rəhbərlik etməsi, siyasi təşkilatın nizamnaməsində bəyan edilən məqsəd və məramın xalqımızın milli maraqlarının qorunmasına yönəlməsi geniş xalq kütləsinin bu təşkilatın sıralarına daxil olmasına təkan verərək, qısa müddətdə Yeni Azərbaycan Partiyasının ümumxalq siyasi partiyasına çevrilməsinə gətirib çıxardı. Azərbaycan xalqının yeganə ümid yeri olan Heydər Əliyevin siyasi arenaya qayıdışı hər bir soydaşımızda belə bir əminlik yaratdı ki, yaxın gələcəkdə ölkəmiz yeni möhtəşəm uğurlara imza atacaq. Həmin dövrü xatırlayan Prezident İlham Əliyev qeyd etmişdir ki, "Xalqda böyük ümidlər yarandı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır".

Ulu öndərin siyasi hakimiyyətə qayıdışı və 3 oktyabr 1993-cü ildə müstəqil dövlətin Prezidenti seçilməsi birmənalı olaraq nümayiş etdirdi ki, ölkəmiz dünya miqyaslı liderin rəhbərliyi altında tamamilə yeni bir inkişaf dövrünə daxil olur. Xalq inandı ki, ulu öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası siyasi avanqard missiyasını layiqincə yerinə yetirəcək. Dövlətçiliyin qorunub saxlanılması, daxili və xarici təhdidlərdən qorunması, ardıcıl iqtisadi, sosial, hüquqi islahatların həyata keçirilməsi imkan verdi ki, ölkəmizdə siyasi sabitlik, əmin-amanlıq təmin edilsin, demokratik dəyərlərə əsaslanan dövlət quruculuğu prosesi uğurla həyata keçirilsin. Bu tarixi əhəmiyyətli nailiyyətlərin reallaşmasında Yeni Azərbaycan Partiyasının müstəsna rolu var.

Ölkənin ən mütəşəkkil, aparıcı siyasi qüvvəsi olan YAP-ın III qurultayında Prezident İlham Əliyevin yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi əyani şəkildə nümayiş etdirdi ki, ulu öndərin dövlətçilik ənənələrinə sadiq olaraq YAP ölkəmizi yeni böyük uğurlara aparacaq və taleyüklü problemlərin həlli üçün fədakarcasına çalışacaq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin hərbi-siyasi strategiyasının döyüş meydanında parlaq şəkildə reallaşdırılması, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası, Qarabağ üzərində üçrəngli bayrağımızın dalğalanması bu inamın gerçəyə çevrilməsinin möhtəşəm təsdiqidir.

Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol əyani formada göstərir ki, Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi olan və sıralarında 700 mindən çox insanı birləşdirən bu əzəmətli təşkilat müasir şəraitdə müxtəlif çağırışlara və təhdidlərə adekvat cavab vermək, ölkəmizin qarşısında duran mürəkkəb problemlərin həlli yollarını axtarıb tapmaq iqtidarındadır və bu istiqamətdə fəaliyyətini uğurlu davam etdirir. Qarşısında duran mühüm vəzifələri layiqincə yerinə yetirən Yeni Azərbaycan Partiyası ulu öndərin bəyan etdiyi kimi, "dünənin, bugünün və gələcəyin partiyasıdır" və partiyanın Sədri İlham Əliyevin rəhbərliyi altında xalqımızı növbəti tarixi qələbələrə doğru aparır.

***Nizami SƏFƏROV,***
***Milli Məclisin deputatı,***
***YAP Təftiş komissiyası sədrinin müavini***